# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №17 (57) • 27.06.2011

AzadliqRadiosu.az

Paytaxtda hərbi parad
səh.3

İlham Əliyevin həbsdə olan sinif yoldaşı
səh.4

Bazarlarda meyvə-tərəvəz niyə bahadır?
səh.6

Диалог с талибами
səh.7

İki azərbaycanlı jurnalist başqa planetə necə düşdü?
səh.10

İlanvuranların sayı artıb
səh.14

Qazaxıstanda çoxarvadlılıq
səh.15

Azərbaycan uğursuzlar sırasında 63-cüdür
səh.8

## L. Ter-Petrosyan: «Əvvəlki ovqatımız, gücümüz qalmayıb»



Ermənistanın sabiq prezidentinin Qarabağ haqqında bədbin müsahibəsi

səh.5-6

## Evi sökülən prezident qonşuları

Keçmiş Karl Marks heykəli yaxınlığında ucalan yeganə 16 mərtəbəli bina ölkə prezidentinin yeni iqamətgahı hesab olunan ərazinin qonşuluğunda yerləşir. Bir neçə ay əvvəl sakinlərə bildiriş gəlib ki, «binanın sökülməsi ilə əlaqədar köçürmə komissiyasına müraciət etmələri xahiş olunur». Hərçənd bildirişin kim və ya hansı orqan tərəfindən verildiyi göstərilməyib.

səh.9



Kazan görüşü niyə nəticəsiz oldu?
səh.2

Əcnəbi jurnalisti və hüquq müdafiəçisini döyən şəxslər tutulub
səh.4

Gürcü patriarxı erməni katalikosunu "cavan və təcrübəsiz" adlandırıb
səh.11



# Kazan görüşü niyə nəticəsiz oldu?

## Prezidentlər Kazanda bəzi razılaşma əldə etsələr də, sənəd imzalaya bilməyiblər

**Azərbaycan və Ermənistan prezidentlərinin Kazan görüşündə bəzi məsələlərdə anlaşma əldə edilib, amma hər hansı sənəd imzalanmayıb. Görüşdən sonra Azərbaycan, Ermənistan və Rusiya prezidentləri birgə bəyanat yayıblar. Sənəddə prezidentlər qeyd edirlər ki, "əsas prinsiplərin qəbulu üçün şərait yaradan bir sıra önəmli məsələlərdə qarşılıqlı anlaşma əldə edilib". Onlar baza prinsiplərinin razılaşdırılması üçün aparılan işin gedişini nəzərdən keçiriblər.**

Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan danışıqlara vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədrləri – ABŞ, Rusiya və Fransaya "Dağlıq Qarabağ probleminin həllini daim diqqətdə saxlamalarına" görə təşəkkür ediblər. Əliyev və Sarkisyan Rusiya prezidenti Medvedevin danışıqların baş tutması və razılığın əldə edilısi üçün göstərdiyi səyləri yüksək qiymətləndiriblər.

Rusiya prezidenti Dmitri Medvedev, Ermənistan prezidenti Serj Sarkisyan və Azərbaycan prezidenti İlham Əliyevin birgə görüşü 3 saata yaxın davam edib. Görüşdən öncə digər həmsədr ölkələrin - ABŞ və Fransanın liderləri də tərəfləri münaqişənin həllinə dair baza prinsiplərini imzalamağa çağırmışdılar.

«Panorama» verilişində politoloqlar - deputat Rasim Musabəyov və Zərdüşt Əlizadə görüşlə bağlı sualları cavablandırıblar.

### «MƏNİM GÖZLƏNTİLƏRİM ÖZÜNÜ DOĞRULTMADI»

Rasim Musabəyov:

- Açığı biz əvvəlki görüşlərin nəticə verməməsini yada salsaq, Kazan görüşünün səmərə verməməsini adi qarşılamalıyıq. Ancaq biz bu görüş ərəfəsi səyləri nəzərə alsaq, Kazan danışıqlarının nəticə verməməsi bir qədər təəccüblüdür. Konkret Barak Obamanın hər iki prezidentə telefon zəngi olmuşdu. Dövlət Departamentində Rusiya XİN-in bəyanatı olmuşdu. Avropa Birliyinin, ATƏT-in, AŞPA-nın tövsiyələri, səyləri var idi. Bundan başqa, Fransa dövlət başçısının müraciəti də diqqət çəkən amillərdən idi. Bütün bunlar belə ehtimallar yaradırdı ki, Kazan görüşü nəticəsiz qalmayacaq. Bu gözləntilər və mənim gözləntilərim özünü doğrultmadı...

Zərdüşt Əlizadə:

- Mən Rasim bəylə razılaşıram və əlavəyə ehtiyac görmürəm.

*- Belə isə Kazan görüşünün nəticə verməsinə nə mane oldu?*

Zərdüşt Əlizadə:

### «NƏ QƏDƏR Kİ, VASİTƏÇİ DÖVLƏTLƏR...»

- Qarabağ münaqişəsi yalnız Ermənistanla Azərbaycanın münaqişəsi deyil. Əslində Ermənistanın bu münaqişəni davam etdirməyə heç bir resursu yoxdur. Ona bu resursu vasitəçi dövlətlər verir. Nə qədər ki, vasitəçi dövlətlər Ermənistana resurslar verəcək, o, güzəştə getməyəcək. Danışıqlar Ermənistanın güzəştə getməməsi üzündən uzanır.

Rasim Musabəyov:

### «BU MƏSƏLƏDƏ PUTİN İLƏ MEDVEDEVİN MÖVQELƏRİ FƏRQLİDİR»


Rasim Musabəyov

- Rusiya münaqişənin həllinə birmənalı təsirlər göstərmir. Medvedev və Rusiya XİN-i elə bil münaqişənin həllinə səylər göstərir. Ancaq hərbi düşərgədən bunun əks siqnalları gəlir. Yada salaq ki, bu görüş ərəfəsində Rusiya parlamentində Ermənistandakı Gümrü bazasının müddətinin uzadılması ilə bağlı müzakirələr getdi. Orada bazadakı artıq silahların Ermənistana verilməsi təklifi eşidildi. Bax, bu, Ermənistanda kompromisə qarşı çıxan qüvvələrə əlavə dəstək idi. Və ya Rusiya silahlı qüvvələrinin Baş Qərargahında əməliyyat idarəsinin rəhbəri deyir ki, biz Qırğızıstanda gecikdik. Ancaq Qarabağda müharibə başlasa, öz borcumuzu ödəyəcəyik. Boş yerə demirlər ki, bu məsələdə Putinlə Medvedevin mövqeləri fərqlidir. Bundan başqa, münaqişənin həllində Rusiya mövqe qazanmaq istəyir. Yəni onlar istəyir ki, məhz Rusiya silahlı qüvvələri Qarabağda sülhməramlı qüvvə qismində çıxış eləsin. Azad edilmiş ərazi MDB sərhədləri kimi qorunsun. Ən nəhayət, Ermənistan sülh masasının ətrafında separatçı rejimin təmsilçisini də otuzdurmaq istəyir...

Zərdüşt Əlizadə:



Zərdüşt Əlizadə

- Ermənistan referenduma çıxarılacaq məsələnin indidən müəyyən edilməsini istəmir. Onlar istəyir ki, gələcəkdə məsələ məhz Qarabağın müstəqilliyi kimi qoyulsun. Üstəlik, Ermənistan tərəfi referendumun vaxtının müəyyən edilməsini də istəyir. Bununla Azərbaycan razılaşsa, bu o deməkdir ki, Qarabağ hüquqi cəhətdən də itirilir. Azərbaycan isə buna getmir, öz şərtlərini irəli sürür. Nəticədə danışıqlar hələ ki, bir nəticə vermir...

*- Onda nə etməli?*

**Politoloqların bu suala cavabını da eşitmək istəyirsinizsə, onda AzadliqRadiosu.az saytında "Panorama" verilişini dinləyin.**




***Babək Bəkir***

# Paytaxtda hərbi parad



**Ötən gün Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasından 93 il keçdi. Azadlıq Meydanında keçirilən hərbi paradda prezidentİlham Əliyev hərbi paradın Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr edildiyini bildirib. Azərbaycan ordusunun regionda güclü ordu olduğunu söyləyən prezidentin sözlərinə görə, artıq büdcədən ölkə hərbisinə ayrılan hərbi xərclər «Ermənistanın bütün büdcə xərclərindən belə çoxdur». İlham Əliyev bildirib ki, Azərbaycan ordusunun illik xərci 3 milyadr 300 milyon dollardır.**

O, müharibə şəraiti davam etdikcə, hərbiyə yüksək məbləğdə vəsait ayrılacağını, yalnız Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasından sonra bu xərclərin azala biləcəyini söylədi. İlham Əliyev çıxışında iyunun 24-də keçirilən Kazan görüşlərinin nəticəsinə toxunmadı, amma dedi ki, münaqişənin diplomatik yollarla həll olunması üçün səylərini davam etdirirlər. Prezident onu da əlavə etdi ki, onlar müasir silah-sursat, hərbi texnika, o cümlədən pilotsuz təyyarələr, artilleriya qurğuları, döyüş təyyarələri alıblar. Eyni zamanda 6 il əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə ölkədə müasir silahlar, hərbi texnika istehsal edilir. Orduda gənclərin xidmət etdiyini deyən prezident onların vətənə bağlı adamlar olduğundan məmnunluğunu söylədi və dedi ki, vətənə bağlılıq vacib amillərdən biridir, çünki «gələcəkdə ölkəni onlar idarə edəcəklər».

İlham Əliyevin çıxışından sonra Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri tribunanın qarşısından keçərək hərbi yürüş ediblər. Hərbi paradda Silahlı Qüvvələrin 6 min nəfərlik şəxsi heyəti, 400-ə qədər hərbi texnika və silah sistemləri, o cümlədən 50-yə yaxın modernləşdirilmiş hərbi döyüş texnikası, Azərbaycanda istehsal olunan və modernləşdirilən 60-a yaxın silah, 14



zirehli transpartyor, 35 döyüş vertolyotu, 22 döyüş, 8 təlim-məşq təyyarəsi, 28 gəmi, kater və digər növlər nümayiş etdirilib.

Müstəqil Azərbaycanda ilk hərbi parad keçmiş prezident Əbülfəz Elçibəyin rəhbərliyi altında keçirilib.

# Korrupsiya ilə bağlı daha bir addım

**Parlamentin iyunun 24-də keçirilən növbədənkənar iclasında Cinayət Məcəlləsinə əlavə və dəyişikliklər edilib. Dəyişikliklərə görə, Azərbaycan vətəndaşları və ölkədə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayətə görə xarici dövlətdə məhkum olunmayıblarsa, Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb ediləcəklər.**

Anspress-in məlumatına görə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycandan kənarda beynəlxalq təşkilatların vəzifəli şəxsləri, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin vəzifəli şəxsləri və hakimləri olan Azərbaycan vətəndaşlarının iştirakı ilə korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayəti törətdikləri halda və həmin cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, bu məcəllə əsasında cinayət məsuliyyətinə cəlb ediləcəklər.

Digər bir dəyişiklikdə isə «külli miqdar» ifadəsi «5 min manatdan artıq olan məbləğ» ifadəsi ilə əvəz edilib.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Müdafiə Komitəsi: **«Məhbuslar aclıq aksiyasını davam etdirir»**



**Xərclənən neft pulları**



**Gəncə qiyamının istintaqı…**




**Məhəmməd Peyğəmbərin şəklinin dərci qalmaqal yaradıb**



**Bu il Gürcüstan 3 milyon turist gözləyir**

# İlham Əliyevin həbsdə olan sinif yoldaşı



Elşən Həsənov. Foto: Deyerler.org

**Rəna Həsənova İctimai Palatanın 2 aprel aksiyasından sonra həbs olunan müsavatçı Elşən Həsənovun həyat yoldaşıdır. Deyir həyat yoldaşı aprelin 2-də gecə saatlarında azad olunsa da, 4 gün sonra yataqda xəstə yatarkən gəlib onu evdən aparıblar: «Aprelin 6-da səhər mən işə getmişəm, o da yataqda xəstə yatırdı. Sanki terrorçu dalınca gəliblərmiş kimi evi mühasirəyə alıblar. Bir-ikisi arxa tərəfdən, bir-ikisi də qapıdan gəlib, yataqdan qaldırıb, aparıblar. Çağırsaydılar, elə özü də gedə bilərdi. Nəyə görə qonşuların içində gəlib onu əliqandallı aparıblar? Heç oğurluq eləyəni belə aparmırlar».**

### BÜTÜN AİLƏ MİTİNQƏ GEDİRMİŞ

Elşən Həsənov Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) maddəsilə ittiham olunur. Haqqındakı 2 aylıq həbs-qətimkan tədbiri başa çatmamış, bu müddət daha 2 ay artırılıb. Rəna xanım danışır ki, son bir neçə aksiyanı çıxmaq şərtilə müxalifətin mitinqlərinə birgə gedərmişlər, hətta Elşənin anası sağ olanda o da onlara qoşularmış. Amma bu, Elşən Həsənovun ilk həbs təcrübəsidir, bundan öncəki aksiyalarda heç vaxt saxlanmayıb. Elə ona görə də bu xəbər ailə üçün gözlənilməz olub.

### SİNİF YOLDAŞINA – PREZİDENT İLHAM ƏLİYEVƏ MƏKTUB

Həbs olunmamışdan öncəki günlər Həsənovlar ailəsi üçün sevincli günlər idi. Çünki 11 ildir ki, işsiz qalan Elşən Həsənov üçün yolun ucunda işıq görünmüşdü. Prezident İlham Əliyevə üçüncü dəfə yazdığı məktuba, nəhayət ki, cavab gəlmişdi: «Gözləmirdi ki, İlham Əliyev nə vaxtsa gəlib prezident olacaq, Elşən də ondan iş istəyəcək. Bunu gözləmirdi».

Prezident İlham Əliyevlə bir sinifdə təhsil alıb Elşən Həsənov, Səbayel rayonundakı 6 saylı orta məktəbi bitirib. Həyat yoldaşı Rəna Həsənova danışır ki, ixtisasca idman müəllimi olan Elşən Həsənov uzun illərdir iş üçün hara üz tutubsa, ondan rüşvət tələb ediblər: «Əvvəllər də 1-2 dəfə prezidentə işə görə məktublar yazmışdı, cavab gəlməmişdi. Yenə məktub yazdı və cavab gəldi ki, İdman Nazirliyinə çağırılır. Tutulmamışdan 2 gün sonra ora getməli idi. Kağızlarını da hazırlamışdı ki, ora getsin. Gəldilər apardılar».



Rəna Həsənova

### «BİRCƏ YOL POLİSİNƏ DEYİRMİŞ Kİ, PREZİDENTİN SİNİF YOLDAŞIDIR»

Rəna Həsənova deyir ki, yoldaşından İlham Əliyev haqda həmişə müsbət fikirlər eşidib. Onu narazı salıb müsavatçıların sırasına qoşan əsas amilsə hökumətdəki əksər məmurların davranışı, işsizlik, pulsuzluq olub. İndi həbsdə olsa da, buna görə peşman deyil: «Elə adam deyil ki, peşman olsun, yatıb çıxsa da, peşman olmayacaq. Prezidentə də prezident olduğuna görə məktub yazmışdı ki, bəlkə işıq yolu olar. Prezident sinif yoldaşı olub deyə bundan hər yanda istifadə etmirdi».

- Hə, bircə yol polislərinə hərdən qaydanı pozanda deyirdi ki, prezidentin sinif yoldaşıyam. O da hərdən olurdu.

Rəna Həsənova deyir ki, həyat yoldaşını heç nədə günahkar hesab etmir, onun tezliklə azadlığa buraxılmasını tələb edir.

***Ülkər Akifqızı***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**









# Əcnəbi jurnalisti və hüquq müdafiəçisini döyən şəxslər tutulub

### İKİ NƏFƏR SAXLANILIB

Bakıda amerikalı jurnalist Amanda Eriksonu və Böyük Britaniyadan olan hüquq müdafiəçisi Celia Daviesi döyən şəxslərdən ikisi tutulub. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, DİN Baş Cinayət Axtarış İdarəsi, Bakı Şəhər Baş Polis İdarəsi və Yasamal Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-istintaq və axtarış nəticəsində hadisəni törətmiş, 1993-cü il təvəllüdlü, Ramana qəsəbə sakini Tağızadə Adil Hüseyn oğlu və Nəsimi rayon sakini, 1989-cu il təvəllüdlü Roman Musa oğlu Həsənov saxlanılıb. Hadisənin adları istintaqa məlum olan digər iki iştirakçısının da tutulması istiqamətində əməliyyat tədbirləri davam etdirilir. Daxili İşlər Nazirliyi iyunun 15-dən 16-na keçən gecə Bakıda döyülən amerikalı jurnalist Amanda Erikson və britaniyalı hüquq müdafiəçi Seliya Devis haqda məlumat yaymışdı. Məlumatda qeyd edilirdi ki, əcnəbilərin döyülməsi ilə əlaqədar Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən törədilən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.

A. Erikson və S. Devis yerli jurnalistlər və vətəndaş cəmiyyəti fəalları üçün treninqlər keçirlər. A. Erikson həmçinin «Washington Post» və «New-York Times» qəzetləri ilə əməkdaşlıq edir.

# L. Ter-Petrosyan: «Əvvəlki ovqatımız, gücümüz qalmayıb»

***İyunun 23-də "Moskovskie Novosti" qəzeti Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanla müsahibə çap edib. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin Kazan görüşü ərəfəsində verilən bu müsahibəni qısa ixtisarla təqdim edirik:***

**-Ermənistan üçün Müstəqil Dövlətlər Birliyi (MDB), yoxsa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) mexanizmləri daha vacibdir?**

- KTMT, sadəcə, bir detaldır, onunla bir şey dəyişməz. KTMT real olaraq harada istifadə edilib? İndiyə qədər bir dənə də belə hal olmayıb, yəqin heç olmayacaq da. Qarabağ məsələsi ilə KTMT arasında heç bir şəkildə əlaqə yoxdur. KTMT MDB-nin xarici sərhədlərinin qorunmasına dair razılaşmadır. Çoxları düşünür ki, birdən Qarabağda müharibə olsa, Rusiya KTMT –nin üzvü olan erməni tərəfi müdafiə etməlidir. Yanlış anlamadır (KTMT-dən mümkün Qarabağ münaqişəsində istifadə edilməsi imkanı – red.) və nədənsə, hətta ekspertlər də həqiqəti bilmirlər. Bu, olduqca təhlükəli yanlışlıqdır. Rusiyanın belə bir öhdəliyi yoxdur.

**- Serj Sarkisyanın administrasiyası Türkiyə ilə əlaqələrə başlayanda Siz demişdiniz ki, Ermənistanın istənilən prezidenti bunu etməlidir...**

- Bəli, belə də edilməlidir və ediləcək də.

**ERMƏNİ-TÜRK MÜNASİBƏTLƏRİ NİZAMLANMADAN ERMƏNİSTANIN PERSPEKTİVİ YOXDUR**

**- Amma Sarkisyan bu istiqamətdə nəyi düzgün etmədi?**

- O, hər şeyi düzgün etdi, bu məsələni gündəlikdə saxlamaq lazımdır. Çünki erməni-türk münasibətləri nizamlanmadan Ermənistanın inkişaf perspektivləri yoxdur.

**- Nə zamansa Ermənistan diplomatiyası bu iki məsələni bir-birindən ayıra və Qarabağ problemindən asılı olmayaraq, Türkiyə ilə münasibətlərin normallaşdırılmasına dair müzakirələri başlamağa nail olubmu?**

- Olmayıb, yalnız Kəlbəcərə qədər bu müzakirələr vardı. Biz türklərə başa salmağa çalışırdıq ki, bu iki problem arasında heç bir əlaqə yoxdur. Türklər bu məsələdə həqiqətən də səhv edirlər, bununla onlar Azərbaycana kömək etmir, daha çox ziyan vururlar. Azərbaycanlıları inandırıblar ki, Türkiyə onların müttəfiqidir, onların arxalarında dayanıb, beləliklə də Bakı Qarabağ məsələsində daha inadkar olur. Bu da Qarabağda ikinci müharibəyə və Azərbaycanın daha beş rayonu itirməsinə gətirib çıxardı. Buna görə Türkiyənin də günahı var. Türkiyə Azərbaycana reallıqları anlamağa, onun hansısa güzəştlərə getməsinə kömək edə bilər. Tələb ediləndə bəlkə daha az güzəştə gedə bilərdilər, nəinki indi.

**BİZ 1998-Cİ İLDƏ MÜNAQİŞƏNİN HƏLLİNƏ YAXIN İDİK**

**- Qarabağ məsələsi necə həll edilə bilər?**

- Belə bir variant var idi. Azərbaycanla Ermənistan arasında ərazi mübadiləsinə dair sənədlər də var. Orada nəzərdə tutulurdu ki, Qarabağ Ermənistanla bağlanır, Naxçıvan isə Meğri dəhlizi vasitəsilə Azərbaycanla. Amma mən bu variantı qəbul etmədim. Çünki strateji cəhətdən Ermənistanın İranla sərhədinin olması, hətta Qarabağdan da vacibdir. Bu variantda isə Ermənistanın İranla sərhədi əlindən çıxırdı. Təəssüf ki, son 13 ildə çox şey itirilib. İtirilən təkcə zaman və Ermənistanın inkişaf imkanları, ölkəni tərk edən insanlar deyil. Biz 1998-ci ildə münaqişənin həllinə yaxın idik. Əvvəl paket həll variantı var idi. Qarabağlılar onu qəbul etmədilər, Azərbaycan qismən razı idi, biz isə rəsmən razılığımızı vermişdik. O zaman ATƏT-in Minsk Qrupunun həmsədrləri həmin variantı


Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan

bütün üç tərəfə göndərmişdi. Tərəflərdən hər hansı biri (o cümlədən də Qarabağ) ona razılıq verməsə idi, sənəd qüvvədən düşürdü. Sonra mərhələli variant gündəliyə gəldi. Bu, demək olar ki, hazırda müzakirə edilən Madrid prinsipləri idi. Bu sənəddə aşağıdakılar nəzərdə tutulur:

- **Laçın və Kəlbəcər istisna olmaqla işğal altında olan rayonlardan beşinin – bizim sözlərimizlə azad edilmiş ərazilər – geri qaytarılması.**
- **Qarabağın bütün sərhədləri boyu sülhü mühafizə qüvvələrinin yerləşdirilməsi və yolların açılması.**
- **Qarabağa aralıq statusun verilməsi (o zaman bu məsələ yox idi).**
- **Dağlıq Qarabağın bütün dövlət orqanlarının, o cümlədən də ordusu və polisinin saxlanması,**
- **Azərbaycanın onun daxili işlərinə qarışmaması.**
- **Qarabağın gələcək statusuna dair danışıqların başlanması.**

Bu kimi məsələlər o zaman da var idi. Amma indi bizim əhalinin sayı 2.5 milyon nəfərdir, o zaman isə 3.5-4 milyon idik. Bax, budur, itirdiyimiz. İndi hər şey əvvəlkindən daha çətindir. Əvvəlki ovqatımız, gücümüz qalmayıb. O zaman Azərbaycan və Ermənistan təxminən eyni səviyyədə idi, hətta makroiqtisadi göstəricilərinə görə Ermənistan daha üstün idi. İndi nəyimiz var? 13 ildən sonra Azərbaycanda ümumi daxili məhsul Ermənistandan beş dəfə artıqdır, büdcəsi beş dəfə çoxdur, hərbi xərcləri 10 dəfə artıqdır. Əlbəttə, belədə Bakı daha təkəbbürlü, tələbkar olacaq.

***(davamı səh. 6-da)***

# Bazarlarda meyvə-tərəvəz niyə bahadır?

**- 5 manata şaftalı, 3 manata ərik, 3 manata gilas, camaat alırmı?**

- Hə, alırlar, amma varlılar alır, kasıblar baxa-baxa gedirlər.

Satıcı Gülnaz Bədəlova deyir ki, ötən il qiymətlər builkindən yarıbayarı ucuz idi: «Bahalıqdır, çox bahalıqdır. Armudun bir kilosu 3-5 manata. Onu kim alıb yeyər? Alçanın kilosu 2 manatdır. Onu almaq olurmu heç?».

Bazardakı tanışlarından nisyə xiyar-pomidor alan Mahmud Həsənov isə baha olduğundan hələ ki, gilas, ərik kimi meyvələrin dadına baxmayıb. Ümidini qiymətlərin lap aşağı düşəcəyi günə bağlayıb.

### AVROPA İLƏ QİYMƏT VƏ MAAŞ MÜQAYİSƏSİ

Mahmud Həsənov deyir ki, rəsmilər çox zaman Azərbaycandakı qiymətləri Avropadakı qiymətlərlə müqayisə edirlər, amma nədənsə o ölkələrdəki maaş və təqaüdlə müqayisə aparılmır. Avropadan söz düşmüşkən, Böyük Britaniyada almanın 1 kiloqramı 1 manat 90 qəpik, pomidor 2 manat, xiyar 2 manat 55 qəpik, gilas 7 manat 50 qəpik, ərik 9 manatdır. Bu ölkədə ən aşağı aylıq əməkhaqqı isə 1200-1400 manat arasıdır. Azərbaycanda qarpızın 1 kiloqramı 1 manat 50 qəpik olsa da, Çexiyanın paytaxtı Praqada 35 qəpik, ən yaxşı alma 1 manat 20 qəpikdir. Azərbaycan bazarlarında 2 manatdan ucuz alma yoxdur.

### KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ 10 GÜNƏ UCUZLUQ OLACAĞINI PROQNOZLAŞDIRIR

Kənd Təsərrüfatı Nazirliyində hesab edirlər ki, əksinə, indi qiymətlər may ayı ilə müqayisədə 50 faiz ucuzlaşıb. Nazirliyin mətbuat katibi Murtuzəli Hacıyev deyir ki, təxminən 10 gün sonra gilas və digər çəyirdəkli meyvələrin qiymətində 50-80 qəpik ucuzlaşma gözlənilir. Yerli meyvə məhsulları bazara yenicə çıxmağa başlayıb: «Hələ bu, kütləvi çıxım deyil. Ona görə qiymətlər yüksəkdir. Yəni məhsulların kütləvi yetişmə dövrü var. Bir həftə -10 gündən sonra çoxalma və ucuzlaşma müşahidə olunacaq».



3 manata ərik

Nazirlik rəsmisi hesab edir ki, ötən ilin indiki dövrü ilə müqayisədə ciddi qiymət fərqi yoxdur. O, meyvə-tərəvəz qıtlığı ilə bağlı narahatlığa da əsas görmür. Deyir bütün sahələr üzrə ötənilkindən artıq məhsul proqnozlaşdırılır: «Misal üçün, kartof tələbatdan iki dəfə çox istehsal olunub. Tələbat 400 min tondur, amma 900 min ton kartof istehsal olunub».

### YERDƏYİŞMƏNİN YARATDIĞI QITLIQ VƏ BAHALIQ

Kənd təsərrüfatı mütəxəssisi Vahid Məhərrəmov kənd təsərrüfatı məhsullarının mövsüm dövründə belə baha olmasını mənfi hal kimi dəyərləndirir. Deyir adamların alıcılıq qabiliyyətinin aşağı olmasına baxmayaraq, qiymətlərin günbəgün bahalaşması ilk növbədə ölkədə ticarətin anormallığı ilə bağlıdır: «Ticarət obyektləri həddindən artıq çoxdur. Mal həmin obyektlərə bölünəndə az görünür, qıtlıq yaranır. Hər bir ticarət obyektinin sahibi də gəlir əldə etmək istəyir. Dövriyyə az olduğundan sahibkar pul qazana bilmir və məcbur olub satdığı malın qiymətini qaldırmaqla gəlir əldə etmək istəyir. Bu səbəbdən də bahalıq yaranır».

Vahid Məhərrəmova görə, kənd təsərrüfatı gəlirli sahə olmadığından, bu sahədə çalışanların çoxu tikinti və ticarət sektoruna üz tuturlar. Bu yerdəyişmə də qıtlıq və bahalaşmaya səbəb olan əsas amillərdən biri sayıla bilər.

***Maarif Çingizoğlu***

# L. Ter-Petrosyan: «Əvvəlki ovqatımız, gücümüz qalmayıb»

**(əvvəli səh. 5-də)**

O zaman əldə edə biləcəklərimizi indi almaq çox çətindir. Yalnız Dağlıq Qarabağın statusuna dair referendum ideyasını inkişaf etdirmək olar. Amma bu məsələ də hələ dəqiq deyil. İndi hətta referendum sözündən də imtina edir, bunun əvəzində isə plebistist – xalq sorğusu kimi heç bir hüquqi nəticəsi olmayan şeylərdən danışırlar.

**- Qarabağa dair Sizin proqnozunuz nədir, yeni müharibə alovlana bilərmi?**

- Amma əgər bu proses də ciddi uğurlar gətirməsə, onda yeni müharibə mümkündür. Sadəcə olaraq, Azərbaycanın hövsələsi daralır. Ermənistan heç vaxt müharibəyə əl atmaz. Əgər müharibə olsa, bunu Azərbaycan başlayacaq. Ən təhlükəlisi də odur ki, Azərbaycanı heç kim çəkindirə bilməz.

**- Rusiya həmişə bildirir ki, onun Qafqazda yeganə müttəfiqi Ermənistandır, amma eyni zamanda da Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlıq qurur...**

- Elə məhz bu məqam Rusiyaya faydalıdır. Əgər hər iki tərəf səninlə dost olmağa çalışırsa, onda sən ən yaxşı vasitəçisən. Bu qanundur. Amma tərəflərin etibarını istifadə etmədən də mümkündür.

**- Qarabağın özünün sülh danışıqlarında iştirak etməməsi pisdirmi?**

- Bu, dəhşətdir. Onun əldə edilməsi Ermənistan diplomatiyasının ən böyük qələbəsi idi, onun danışıqlardan kənar edilməsi isə ən böyük uğursuzluğu oldu. Dörd il biz çalışmışdıq ki, Qarabağ da danışıqlarda tərəf olsun. 1994-cü ildə elə Rusiyanın köməyi ilə buna nail olmuşduq. Qarabağ danışıqlarda iştirak edən tərəf kimi beynəlxalq mandat almışdı. Müzakirələrdə iki erməni tərəf, bir də Azərbaycan iştirak edirdi. Bu, prinsip məsələsidir. Axı biz Qarabağın özünüidarəsinin tərəfindəyik. O hal da Ermənistan beynəlxalq danışıqlarda Qarabağı necə təmsil edə bilər? Qarabağın özü iştirak etmədən necə Ermənistan onun taleyinə dair Azərbaycanla razılaşma imzalaya bilər? O halda özünüidarə harada qaldı?

# Глава ОБСЕ призывает Азербайджан и Армению воздержаться от применения силы


Аудронюс Ажубалис

*Урегулирования нагорно-карабахского конфликта должно продолжаться в мирном ключе, заявил действующий председатель ОБСЕ Аудронюс Ажубалис. "Я надеюсь, что работа по решению остающихся вопросов будет продолжена, для того чтобы проложить путь к разрешению конфликта", - цитирует Ажубалиса официальный сайт ОБСЕ.*

Он также отметил, что необходимо укрепление режима прекращения огня. "Я призываю лидеров следовать договоренностям, достигнутым в ходе предыдущих трехсторонних встреч в Астрахани в октябре 2010 года и в Сочи в марте текущего года, расследовать возможные инциденты на линии соприкосновения и воздерживаться от угрозы силы или ее применения", - добавил глава ОБСЕ.

# Политическое значение обмена памятниками

*В ночь с 7 на 8 июня азербайджанские власти демонтировали памятник бывшему президенту Египта Хосни Мубараку в городе Хырдалан неподалеку от Баку. На том же постаменте установлена скульптура древнего египтянина. О политическом значении обмена памятниками и концепции идеологического присутствия Азербайджана в зарубежных странах - в интервью с директором РадиоАздадлыг Кенаном Алиевым:*

- На Востоке символические обмены имеют очень большое значение. С другой стороны, нужно также посмотреть на форму правления как в Египте, так и в Азербайджане. Они очень схожие. Эта идеологическая близость тоже, наверное, сыграла большую роль.

- Мы можем сколько угодно иронизировать над этими памятниками, но Вы сказали о "восточной политической традиции", "восточной политической культуре". В этом контексте такие символы дружбы нормальны?

- Можно обменяться памятниками писателям или культурным деятелям. Азербайджанский архитектор мог бы построить что-нибудь в Египте, а египетский - что-нибудь в Баку. Но когда обмениваются памятниками президентов, которые сносят после того, как президенты уходят от власти, - это уже несерьезно. В Азербайджане идет усиленный экспорт памятников, не только в восточные страны, но и в Европу. Сегодня (8 июня - ред.) в Белграде ожидается открытие памятнику Гейдару Алиеву. Это уже не первый памятник в Европе. Есть памятник Алиеву в Бухаресте, есть в Астрахани. У нас есть даже такой заголовок: "Алиев шагает по Европе" - и очень уверенно, кстати. Это стало одной из внешнеполитических целей азербайджанского современного государства - подчеркивать присутствие Азербайджана в других странах новым памятником. Страны, которые хотят иметь какие-то экономические преференции в отношениях с Азербайджаном, или зависят от азербайджанской нефти или газа, на это очень охотно идут. Тем более, что все затраты на установление памятника и создание парка вокруг этого памятника берет на себя азербайджанская сторона.


Кенан Алиев

***Андрей Шарый, Фарид Арифоглу***

# Диалог с талибами


Министр обороны США Роберт Гейтс

*Министр обороны США Роберт Гейтс признал факт участия американских официальных лиц в предварительных переговорах с движением Талибан, направленных на поиски политического разрешения конфликта в Афганистане. Вместе с тем Гейтс добавил, что не ожидает значительного прогресса во внутриафганском урегулировании в ближайшие месяцы.*

За 11 дней до официального ухода с поста главы Пентагона Роберт Гейтс подтвердил, что администрация Обамы делает первые шаги в попытках начать диалог с талибами с целью положить конец боевым действиям в Афганистане. В воскресном интервью телеканалу CNN Гейтс предупредил, что переговоры находятся в самой ранней стадии, и что американские представители все еще не уверены, являются ли их визави-талибы подлинными представителями лидера движения муллы Омара. Гейтс сказал, что, хотя переговоры ведутся американскими дипломатами, государственный секретарь Хилари Клинтон не имеет к ним прямого отношения.

Вернувшись к своей ранее высказанной озабоченности намерением администрации Обамы вывести значительное число американских военнослужащих из Афганистана этим летом, Гейтс добавил: " Я думаю, что талибы должны почувствовать себя под военным давлением и начать осознавать невозможность своей победы до тех пор, пока они не будут готовы на серьезные переговоры".

По словам Гейтса, Соединенные Штаты требуют от талибов полного отмежевания от "Аль-Каиды" и других террористических группировок, а также соблюдения ряда так называемых "красных линий", очерченных президентом Карзаем и странами антиталибской коалиции, включая безусловное уважение прав человека, гарантированных афганской конституцией, и полный отказ повстанцев от применения силы.

***Радио Свобода***
***Аллан Давыдов***

# Azərbaycan uğursuzlar sırasında 63-cüdür

**«Uğursuz ölkələr siyahısı»nda Azərbaycan bu il 63-cüdür. Amerikanın iki aparıcı politologiya institutu – «Foreign Policy» (Xarici Siyasət) jurnalı və Amerika Sülh Fondu (The Fund for Peace) ictimai təşkilatı növbəti, sayca yeddinci olan «Uğursuz ölkələrin siyahısı»nı (Failed States Index) tərtib edib. Ötən il 55-ci yerdə olan Azərbaycan bu il bir qədər irəliləyib.**

177 ölkənin daxil olduğu «Uğursuz ölkələrin siyahısı» 12 sosial, iqtisadi və siyasi meyar əsasında hazırlanır. Bu meyarlara demoqrafik təzyiq, qaçqınların miqrasiyası, narazı qrupların olması, insanların sabit və daimi miqrasiyası, qeyri-bərabər iqtisadi inkişaf, iqtisadi vəziyyətin pisləşməsi, qanunsuzluq, ictimai xidmətlərin keyfiyyətinin pisləşməsi, insan haqlarının pozulması, «dövlətdə dövlət» yaranması təhlükəsi, qrup və ya klan elitalarının güclənməsi və digər dövlətlərin müdaxiləsi kimi meyarlar aiddir.

**ƏN UĞURSUZ SOMALİ, ƏN UĞURLU FİNLANDİYA**

Bu reytinqi tərtib etmək üçün açıq mənbələrdə yerləşdirilmiş 10 minlərlə məqalə və materialı 12 meyar əsnasında saf-çürük edir və nəticədə hər ölkənin müəyyən balı toplanır. Uğursuz ölkələr daha çox bal toplamış olur və siyahıda önə çıxırlar. Reytinq tərtibatçılarının fikrincə, bu il də dünyada ən az bacarıqlı dövlət Somalidir. Ötən il də Somali siyahının başında dayanırdı. Uğursuz ölkələr beşliyinə Çad, Sudan, Konqo və Haiti aiddir. Finlandiya başda olmaqla Norveç, İsveç, İsveçrə və Danimarka isə ən əlverişli və sabit ölkə olmaqla «Uğursuz ölkələr siyahısı»nda sonuncudurlar.

**AZƏRBAYCANI GERİDƏ QOYAN AMİLLƏR**

Qonşulara gəlincə, Rusiyada vəziyyət az da olsa yaxşılaşıb, ötənilki 80-ci yerindən bu il 82-yə qalxıb, Gürcüstan da eynilə, ötənilki 37-ci yerindən bu il 47-yə qalxıb. Türkiyədə vəziyyət daha yaxşıdır, 104-cü yerdədir. Ermənistanda isə göstərici ötənilki ilə eyni olsa da, bu ölkə Azərbaycandan xeyli öndədir: 101-ci yer.


Qubad İbadoğlu

Ekspert Qubad İbadoğlu Ermənistanın siyahıda tutduğu yerlə, başqa sözlə, bu ölkənin nəinki Azərbaycan, hətta Rusiyadan da önə keçməsi ilə razılaşmır. Azərbaycana gəlincə hesab edir ki, ölkəni bu reytinqdə geridə qoyan əsas səbəb Azərbaycanda demokratik, hüquq institutlarının, iqtisadi mədəniyyətin olmamasıdır: «Bundan başqa, ölkədə inhisarçılığın olması, neft gəlirlərinin ədalətli bölünməməsi, iqtisadiyyatda reformaların aparılmaması səbəbindən ictimai xidmətlərin hələ də dövlət tərəfindən həyata keçirilməsi Azərbaycanın "uğursuz ölkələr siyahısı"nda yaxşı yer tutmasına mane olur».

***Ülkər Akifqızı***

# Azərbaycanda müxalifətçilərin interneti niyə kəsilir?



AXCP sədri Əli Kərimli

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) lideri Əli Kərimli internet azadlığının məhdudlaşdırıldığını iddia edir: «Təqribən bir ay ərzində müxtəlif bəhanələrlə mənim internetimi, ümumiyyətlə, kəsdilər. İndi də sürət olduqca aşağı olduğundan evimdən bloqumu yeniləyə bilmirəm. Bu barədə mütəxəssislərlə də məsləhətləşmişəm, bildirirlər ki, bu, birbaşa mənim İP ünvanıma olan müdaxilə ilə bağlıdır. Məsələ təkcə mənimlə də kifayətlənmir, partiyanın əsas funksionerlərinin demək olar ki, hamısının internet fəaliyyətinə məhdudiyyət qoyulur».**

AXCP-nin iyunun 22-də yaydığı bəyanatda deyilir ki, Azərbaycan hakimiyyəti son 3 ayda virtual aləmdə insanların azadlığını məhdudlaşdırmağa başlayıb: «Partiyanın sədri və onun müavinlərinin mənzillərindən internetə daxil olmanın sürəti siyasi sifarişlə törədilən texniki maneələr ucbatından azaldılır, sosial şəbəkələrdəki hesablarının parolları sındırılır».

**«BİZİM ÜÇÜN ABUNƏÇİNİN KİMLİYİNİN HEÇ BİR FƏRQİ YOXDUR»**

«Azeurotel»in abunəçisi olan Əli Kərimli deyir ki, əvvəlcə provayderini dəyişmək fikrinə düşüb, amma apardığı araşdırma nəticəsində bu qənaətə gəlib ki, bunun heç bir faydası olmayacaq, ölkədə internet monopoliyası və senzurası mövcuddur.

«Azeurotel» şirkətinin şöbə müdiri Asif Quliyev isə Əli Kərimlinin iddiaları ilə razılaşmır: «Hesab edirəm ki, belə bir şey mümkün deyil. Bizim üçün abunəçinin kimliyinin heç bir fərqi yoxdur, pulunu ödəyir, biz də xidmət göstəririk. Bazar iqtisadiyyatıdır, ölkədə bizdən başqa 10 dənə internet xidməti göstərən provayder var. Bizdən çıxıb başqasına gedəcək. Niyə öz müştərimizi itirək ki?!».

**İNTERNET ÜZRƏ «QİSMƏN AZAD» ÖLKƏ**

«Freedom House» Beynəlxalq Hüquq Müdafiə Təşkilatı isə bu ilin aprelində yaydığı hesabatda Azərbaycanı internet üzrə «qismən azad» ölkələr sırasında göstərib. Hesabatda həmçinin Azərbaycanın internet məkanında inhisarçılığın olması da qeyd olunub.

***Ülkər Akifqızı***

# Evi sökülən prezident qonşuları

**- Prezidentin o qədər evi var ki... Bax, burada nə isə tikiblər. Bu, keçmiş Yaşıllıq Trestinin sahəsidir. Bax, orda 4 dənə bina tikiblər, gözəl park salıblar. Bizim köçürülmə ona görədir.**

**- Nə tikiblər ki?**

- Bilmirik nədir, üstündə bayraq olsaydı, deyərdik prezident üçündür, hökumət üçündür, kimsə üçün tikilir. Ancaq bu kompleksə görə bizim bina uçurulur. Biz görməyək ki, gözə gətirərik, birdən bir gözəl iş görərlər, biz də onu görərik.

Rafiq Quliyev keçmiş Karl Marks heykəli yaxınlığında ucalan, yeganə 16 mərtəbəli binanın sakinlərindən biridir. Belə görünür, Bakının ilk 16 mərtəbəli binalarından birini də Füzuli və Şəmsi Bədəlbəyli küçələrindəki evlərin taleyi-sökülmə gözləyir. Üstəlik, bu dəfə köçürülən əhali ölkə prezidentinin yeni iqamətgahı hesab olunan ərazinin qonşuluğunda yerləşir. Bir neçə ay əvvəl sakinlərə bildiriş gəlib ki, «binanın sökülməsi ilə əlaqədar köçürmə komissiyasına müraciət etmələri xahiş olunur». Hərçənd bildirişin kim və ya hansı orqan tərəfindən verildiyi göstərilməyib. Növbəti bildirişdə isə qeyd olunub ki, «bina qəzalı vəziyyətdədir» və vətəndaşlar mənzilləri qarşılığında dövlət tərəfindən Bakıda inşa olunan yaşayış binalarında öz mənzillərinin ümumi sahəsinə uyğun tam təmir olunmuş mənzil veriləcək. Bu dəfə də bildirişi göndərən orqanın adı açıqlanmayıb, sadəcə, sonluğunda «Köçürmə Komissiyası» yazılıb.

### «DEYİRLƏR Kİ, BİNANI QƏZALI EDƏCƏYİK»

Azadlıq prospekti 154 ünvanında yerləşən 16 mərtəbəli və «Xruşşov» layihəli iki 5 mərtəbəli binanın sakinləri isə deyirlər ki, evləri bir qrup məmurun ucbatından sökülmək təhlükəsi ilə üzləşib. Səbəb kimi də «qəzalı» olduğu göstərilir. Hərçənd sakinlər evlərin seysmik təkanlara davamlı olduğunu, indiyə qədər heç bir qəzalı vəziyyətə düşmədiyini deyir: «Deyirlər ki, binanı qəzalı edəcəyik. Nədir ki, 2-3 akt tərtib edəcəklər ki, guya bina qəzalıdır. Təzə metod tapıblar. Camaat o vəziyyətə düşüb ki, səfirliyə gedib sığınacaq istəyir».



Bina sakini Anar: «Bir özəl şirkətin marağı var burda, şirkət binanı almaq istəyir, binanı götürüb dövlətə baha qiymətə satmaq istəyir. Burda qalanlar qanunları bilənlərdir. Qanunu bilməyənləri qorxudublar təzyiq ediblər ki, döyəcəklər, «dubinka» ilə çıxaracaqlar. Onlar da məcbur olub çıxıblar. Köçən adamlara isə adicə, geydirmə müqavilə veriblər. Müqavilə də heç bir notariusda təsdiq olunmayıb».



### YAP-ın ÜZVLƏRİ VƏ HEYDƏR ƏLİYEV YADİGARI

Kənardan qəzalı vəziyyətdə olduğu hiss olunmayan 16 mərtəbəli binanın içində vəziyyətin necə olduğunu öyrənmək üçün bloklara giririk. Ancaq yuxarı qalxmaq üçün lift işləmir, liftin kənarları isə uçulub-dağıdılıb. Sakinlərin sözlərinə görə, lifti və binadakı mənzilləri bir aydır bu hala salıblar. Hətta qonşulardan biri də bu vəziyyətə dözməyib vəfat edib. Yuxarı mərtəbələrə qalxdıqca isə vəziyyət daha da mürəkkəbləşir, mənzillərin qapısı yerindən çıxarılıb, pəncərəsi, hətta döşəmə taxtaları, divarlardan keçən məftillər belə sökülüb:

- Hamısı bir gündədir. 60 dənə mənzil



bu gündədir, nə istəsən edə bilərlər, partlayıcı maddəni qoyub gedə bilərlər. Gətir bir butulka benzini yandır, sonra da fövqəladə hallar gəlsin, çıxmaq istəməyənləri suya tutsun. 6 aydır bizə təzyiq göstərirlər, 1 ayın ərzində bax bu günə salıblar.

### «DÖVLƏT EHTİYACLARI ÜÇÜN...»

Özünü Əmlak Məsələləri Dövlət Komitəsinin şöbə müdiri kimi təqdim edən Yusif Qənbərov deyir ki, binanın qəzalı vəziyyətdə olması haqda Fövqəladə Hallar Nazirliyinin qərarı var. Sakinlər də bunun əsasında köçürülür. Köçürüldükləri ünvan isə «Azinko» şirkətinin tikdiyi evlərdir. Kompensasiya tələb edən, evlərindən köçmək istəməyənlərə gəlincə, Yusif Qənbərov bunları deyir: «218 mənzilin hal-hazırda 205-i razılıq əsasında köçürülür. Orda 15 ailə var ki, onların özlərinin daxili ailə problemi var, oğlu evlənib onunla qalır və s. Belə ailələr vəziyyətdən istifadə edib 2 mənzil istəyir, spekulyasiya edirlər. Buna da biz yol vermirik. Onları da biz qısa zamanda razı salıb geniş mənzillə təmin edəcəyik».

### VƏKİL SÖKÜNTÜNÜ QANUNSUZ HESAB EDİR

Vəkil Fuad Ağayev isə vətəndaşların «dövlət ehtiyacı» adı altında köçürülməsini qanunsuz hesab edir. Həmin ərazidə respublika əhəmiyyətli yol kommunikasiyasının tikilmədiyi, müdafiə təyinatlı obyekt nəzərdə tutulmadığından və üstəlik Bakı sərhəd zolağında yerləşmədiyindən vəkil evlərin bu səbəbdən sökülməsini qanunsuz hesab edir.

***Sevinc Hüseynzadə***

# İki azərbaycanlı jurnalist başqa planetə necə düşdü?

**«Hər bir şəhər öz tarixi ilə, ənənələri ilə maraqlıdır. İnsanlar 20-30 il əvvəl baş çəkdikləri məkana təzədən dönəndə, xoş duyğular yaşayırlar. Ancaq təəssüf ki, Bakıda belə yerlər qalmayıb». Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramının «Oslodan baxanda Bakı necə görünür» sualına cavabında jurnalist Zamin Hacı söylədi. Xatırladaq ki, Norveçin Söz Azadlığı Fondu ilə Almaniyanın Tsayt-Ştiftunq Fondu tərəfindən verilən media mükafatının builki qaliblərindən olan Zamin Hacı mükafatın təqdimat mərasiminə qatılmaq üçün Osloya səfər etmişdi.**



**Zamin Hacı**

### HƏR YERİ DAĞIDIBLAR

Zamin Hacının fikrincə, hazırda Bakıda hər şeyi dağıdıblar: «İnsanlarda nostalji oyadan bir məkan qoymayıblar qalsın. Üstəlik də, Norveç kimi yaşıllıq bir şəhərdə, Oslo kimi sanki meşəlikdə salınmış şəhərdən sonra Bakıya baxmaq adama pis təsir edir. Dar küçəli Osloda ictimai nəqliyyat elə rəvan işləyir ki... Heç kəs siqnal vermir. Nəqliyyatda qayda-qanun var. Heç Yol Polisinə də ehtiyac yoxdur. Gözə də görünmürlər. Vətəndaşlar özləri hər şeyi tənzimləyirlər».

### BAŞQA PLANETƏ DÜŞMÜŞDÜM

Zamin Hacı elə bil başqa planetə düşdüyünü etiraf etdi: «Bu, başqa planet idi—dünyagörüşləri, yaşayışları... Mən iqtisadiyyat üzrə təhsil almışam. Bilirdim ki, Norveç dünyanın ən inkişaf etmiş ölkələri sırasındadır. Açığı, ən inkişaf etmiş ölkənin nə olduğunu orada gördüm».

### AZAD ÖLKƏNİN DOĞURDUĞU TƏƏSSÜRAT

Aparıcının «Sevinc xanım, Siz də özünüzü yadplanetli kimi hiss etdinizmi» sualını səfərdə iştirak etmiş jurnalist Sevinc Telmanqızı belə cavabladı: «Adam orada özünü həqiqətən fərqli bir planetdə hiss edir. Düzdür, Norveç haqqında internet bilgilərim var idi. Amma azad ölkənin doğurduğu təəssüratı heç bir internet səhifəsi verə bilməz. İlk şokum parklardakı yaşıllıq oldu. Ondan sonra yaşadığımız qəsəbənin (Biləcəri) parkına gəldim və həqiqi şoka girdim. Bizdə park deyərkən iki ağacın altında mütləq çayxana, restoran, nərdxana və s. düşünülür. Amma parkın təyinatının nə olduğunu mən Osloda gördüm. Sən demə, park insanların gəzməsi, nəfəs alması, uşaqların oynaması üçün olan məkan imiş!».

-- Qaldıqları 4 gündə Oslo jurnalistlərdə daha hansı təəssüratlar doğurdu?

**Ən yaxşısı AzadliqRadiosu.az saytından verilişi dinləməkdir...**

***Sevda İsmayıllı***

# Sahibkarlıq subyektlərində yoxlamalar yeni qayda ilə aparılacaq

Azərbaycan Nazirlər Kabineti «Nəzarət kitabçası» haqqında Əsasnamə»yə dəyişikliklər edib.Qərara əsasən, sahibkarlıq subyektlərində yoxlama aparılanda, «Nəzarət kitabçası»na bu yoxlamanın vahid məlumat reyestrindəki kodu da əlavə olunmalıdır. Bundan başqa, əsasnaməyə yeni bənd əlavə olunub. Bu bəndə əsasən, yoxlama vahid məlumat reyestrində qeydiyyata alındıqdan sonra həyata keçirilə bilər. Yoxlamanın aparılması üçün vəzifəli şəxs bu reyestrdə



yoxlamanın qeydə alınması barədə çıxarışı sahibkara təqdim etməlidir. Bunsuz yoxlamaya başlamaq olmaz.



**Ai Weiwei**

# Azadlığa çıxan çinli rəssam evini tərk edə bilməz

**Çində həbsdə olan rəssam Ai Weiwei girov müqabilində azadlığa buraxılıb. Rəssam Britaniya televiziyasına bildirib ki, artıq evinə qayıdıb: "Mən yaxşıyam, çox yaxşıyam. Səhhətim də yaxşıdır".**

Ai Weiwei deyib ki, o, hələ də istintaq altındadır və evini icazəsiz tərk edə bilməz. Çinin Xarici İşlər Nazirliyinin sözçüsü Hong Lei rəssamın ev dustağı olub-olmadığına aydınlıq gətirməyib. Yalnız onu deyib ki, Ai Weiwei vergi borcunu etiraf edəndən sonra girov müqabilində azadlığa buraxılıb.

54 yaşlı rəssam bu ilin aprelində tutulub. O, hökumət əleyhinə fəal kimi tanınır. Beynəlxalq ictimaiyyət onun həbsini pisləmişdi və Çin hakimiyyətindən tələb etmişdi ki, təcili Ai Weiwei azadlığa buraxılsın.

### AI WEIWEI KİMDİR?

Ai Weiwei beynəlxalq aləmdə tanınmış rəssamdır. 2008-ci ildə Pekin olimpiya oyunlarının keçirildiyi quş yuvası stadionunun dizaynında onun da əməyi olub. Hazırda isə Londondakı Teyt qalereyasında əsərlərinin sərgisi keçirilir. O, insan hüquqları və azadlıqları ilə bağlı bir sıra kampaniyalarda iştirak edib. Dəfələrlə Çin hökumətini tənqid edib. 2009-cu ildə ictimai fəallardan birinin məhkəməsində şahid kimi ifadə verməməsi üçün döyülüb.

Ötən ilin sonunda Ai 58 nəfərin ölümü ilə nəticələnən Şanxay yanğını ilə bağlı vətəndaş təhqiqatına başlamışdı. 2011-ci ilin yanvarında Şanxayda yeni tikilmiş studiyasını yerli hökumət dağıtmışdı. Özünə qarşı maneələrlə bağlı Ai Weiwei əsərlərini nümayiş etdirmək üçün Almaniyada studiya açmağı da planlaşdırırdı.

# Nəzir qutuları yığılır, ya yox?

**«BİZİM ŞEYXLƏRİMİZ ELƏ YERƏ XƏRCLƏYƏR»**

"Bibiheybət" məscidi Azərbaycanda ən böyük ziyarətgahlardan biridir. Şəhərin girəcəyində yerləşən bu ziyarətgahdakı nəzir qutularına hər gün az qala yüzlərlə adam pul atır. Biz "Bibiheybət" məscidinin yaxınlığında çəkiliş apararkən yoldan keçən maşınların təxminən yarısı burda dayanır, sürücülər də, onların yaxınları da nəzir qoymağı özlərinə borc bilirdilər.

**«BİZİ DƏNİZƏ SAL, GÜNAHIMIZ YUYULMAZ»**

Eynulla Zahidov da sürücüdür. Deyir ki, bura atılan nəzirin kasıb-kusuba çatmasına inanmır. Səbəbini soruşuruq, cavab verir ki, bir qədər əvvəl burda bir əlil oturub yolçulardan kömək istəyib, məscidin işçiləri də onu qovub.

*- Amma bilə-bilə, yenə də nəzir verirsiz?*

- Guya günahımızı yuyuruq. Amma bizi dənizə də sal, günah yuyulmaz. Onunla günah yuyular? Elə bil adət düşüb. Ayrıca yer ola, qənd-çay, un yığıla, ehtiyacı olana paylana...

Bu deyilənlərlə bağlı məscidin axundu ilə danışmaq istədik. Amma axund müsahibə verməkdən imtina etdi.

**RƏBİYYƏT ASLANOVA DEYİR Kİ, QUTULAR LƏĞV OLUNUR**

Bu günlərdə «Dini etiqad azadlığı haqda qanuna» dəyişikliklər edildi. Parlamentin İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova deyib ki, nəzirlərə nəzarətlə bağlı qanuna müddəa



Rəbiyyət Aslanova

əlavə edilib: «Bu ayırmalar üzərində nəzarətin olması, bu maliyyə vəsaitinin hara getməsilə əlaqədar olaraq bu müddəa daxil edilib. Bununla da artıq nəzir qutusu və digər məsələlərə birdəfəlik son qoyulacaq».

Amma bu müddəa nədir, dəqiq bilən yoxdur.

**CAVANŞİR PAŞAZADƏ «ÖZFƏALİYYƏT QUTULARIN» YIĞILACAĞINI DEYİR**

Bu məqsədlə Rəbiyyət Aslanovanı çox axtardıq, ancaq tapmadıq. Həmin Komitədən Cavanşir Paşazadəyə yönəltdik suallarımızı. O dedi ki, qanunda nəzir qutularının ləğvi ilə bağlı heç nə yoxdur:

- Hər yerdə nəzir qutuları qoyulur. Qanunda da deyilir ki, bu, rəsmiləşdirilməlidir. Yəni ki, bizdə təxminən 7-8 ziyarətgah var, bəlkə də səhv edirəm. Qalanları özfəaliyyətdir. Bu qutular da yığılacaq.

*- Necə olacaq? Qafqaz Müsəlmanları İdarəsi nəzarət edəcək?*

- Xeyr! İdarə nəzarət etməyəcək. Çünki belə şey qanunda yoxdur. Mən qanundan danışa bilərəm. Bununla bağlı İdarənin, ya da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin layihələri olacaq. Onlar ona cavab verə bilərlər.

Komitənin digər üzvü, deputat İqbal Ağazadə isə Cavanşir Paşazadənin dediklərini təkzib etdi. Qanunda nəzir qutularına nəzarətlə bağlı müddəa olmadığını dedi. Amma Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Salman Musayev də deyir ki, qanunda nəzir qutularına nəzarətlə bağlı müddəa yoxdur.

**«MALİYYƏ VƏ YA VERGİLƏR NAZİRLİYİ...»**

Dini məsələlər üzrə ekspert Elşad Miri isə bu fikirdədir ki, qanunda nəzir qutuları ilə bağlı boşluq var. Bu da hər cür yozuma yol açır. Ona görə məsələ konkretləşdirilməlidir. Elşad Miri nəzir qutularına nəzarətin tərəfdarıdır. Bunu da Maliyyə və ya Vergilər Nazirliyi kimi rəsmi qurumlar etməlidir.

***Şahnaz Bəylərqızı***

# Gürcü patriarxı Erməni katalikosunu "cavan və təcrübəsiz" adlandırıb



Erməni katalikosu Garegin və Patriarx II İlya, Tbilisi, 10 iyun 2011

**Erməni Apostol Kilsəsi Gürcüstan Pravoslav Kilsəsinin başçısı Patriarx II İlyanın erməni katalikosu II Garegin haqqında dedikləri "uyğunsuz" fikirləri tənqid edib. Bu haqda AzadlıqRadiosunun erməni xidməti məlumat yayıb. Məlumata görə, ötən bazar günü Gürcüstan patriarxı II İlya Müqəddəs Triniti kilsəsində çıxış edərkən iki dini lider arasındakı mübahisələri Gareginin nisbətən gənc yaşda olması ilə əlaqələndirib: "Garegin gəncdir, yəqin hələ təcrübəsi kifayət qədər deyil. O, ağıllı olsa da, hər iş üçün tələsir. Mən ona dedim ki, 30 illik təcrübəm var və bilirəm ki, hər işə sakit yanaşmaq lazımdır".**

78 yaşlı Patriarx II İlyanın 59 yaşlı Gareginə belə irad tutması erməni dindarlarının xoşuna gəlməyib. Eçmiadzindəki (Yerevanın 20 km-liyində şəhər) kilsənin baş rahibi, yepiskop Arşak Xaçatryan bu çıxışı tənqid edib: "Kilsə başçıları arasındakı münasibətləri nəzərə alsaq, gürcü patriarxın belə bir fikir səsləndirməsi etik deyil".

İki kisə arasındakı mübahisələrin səbəbi hər iki ölkədəki bəzi məbədlərin sahibliyi ilə bağlıdır. Garegin 1999-cu ildən Erməni Apostol Kilsəsinə başçılıq edir. O, iyunun 10-da Gürcüstana birhəftəlik səfər etməklə iki kilsə arasındakı gərgin münasibətləri bir qədər yumşaldacağına ümid edirdi. Bu, erməni kilsə başçısının demək olar 100 ildən sonra Gürcüstana ilk səfəri idi. Səfər zamanı Apostol Kilsəsinin Gürcüstanda, həmçinin Gürcü Pravoslav Kilsəsinin Ermənistanda statusunun müəyyənləşməsi məsələsi də gündəmdə olub. Lakin iki dini lider bu məsələlərdən heç biri ilə bağlı konkret razılığa gələ bilməyiblər.

# Asəf Quliyev: «Heydər Əliyev Naxçıvan cəbhəsinin sədri olmaq istəyirdi»


Asəf Quliyev

**- Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyi ilə bağlı seriya söhbətlərimizdən bu dəfə suallarımıza Asəf Quliyev cavab verir.**

**«AZADLIQ»DAN AXCP-YƏ QƏDƏR**

Asəf Quliyev 1958-ci ildə Babək rayonunun Yuxarı Uzunoba kəndində doğulub. 1985-ci ildə Naxçıvan Pedaqoji İnstitutunun tarix fakültəsini bitirib. Asəf Quliyev 1992-ci ilin oktyabrında AXC Naxçıvan təşkilatının sədri seçilib. 1994-cü ilin martın 3-dən 2002-ci ilin martın 14-nə kimi həbsdə yatıb. Hazırda AXCP sədrinin müavinidir.

**«NAXÇIVANDA CƏBHƏÇİ DEPUTATLAR ƏBÜLFƏZ ELÇİBƏYİ EŞİTMƏDİLƏR»**

*- Asəf bəy, necə oldu ki, 1991-ci ildə Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçildi?*

- Həmin məlum sessiyadan öncə Bakıda idim. Əbülfəz Elçibəylə görüşdüm. O dedi ki, Naxçıvan Ali Məclisinin sədri Qafar Məmmədov, Baş nazir isə Becan Fərzəliyev olmalıdır. Mən onun bu istəyini Naxçıvan cəbhəçilərinə də çatdırdım. Ancaq cəbhəçi deputatların çoxu onu eşitmədilər. Sessiyadan bir gün əvvəl Naxçıvanda mitinq çağırılmışdı. Həmin mitinqdə Heydər Əliyevə belə bir məktub çatdırıldı ki, Siz Ali Məclisin sədri olarsınızmı? Heydər Əliyev də dedi ki, xalq istəyərsə, olaram. Sessiyada isə cəbhəçi deputatlardan bir neçə nəfəri çıxmaqla hamısı Heydər Əliyevə səs verdi. Naxçıvan Ali Məclisində təqribən 25 cəbhəçi deputat var idi. Yalnız Arif Rəhimov və bir neçə nəfər Heydər Əliyevə səs vermədi. Mən onda deputat deyildim. Heydər Əliyevə səs verən cəbhəçi deputatlar bu seçimlərini şəxsi istəkləri ilə izah edirdilər. Onların bəziləri xalq hərəkatına öz xidmətləri kimi baxırdılar. Daha dəqiq desəm, onlarda «xırda padşah»lıq hissi yaranmışdı...

**«HEYDƏR ƏLİYEV NAXÇIVAN CƏBHƏSİNİN SƏDRİ OLMAQ İSTƏYİRDİ»**

*- Bəs mərhum Heydər Əliyevlə Naxçıvan cəbhəçilərinin arası necə dəydi?*

- Mən bilirdim ki, Heydər Əliyev AXC Naxçıvan Təşkilatının da sədri olmaq istəyir. Hətta kimsə ona cəbhəyə üzv olmaq təklif etmişdi, o isə bildirmişdi ki, məni sədr seçin üzv olum. 1991-ci ildə keçirilən konfransda isə mənim təklifimlə Arif Rəhimovu sədr seçdik. Üstəlik, sərhədlərin müdafiəsi ilə bağlı yaradılan könüllü batalyonlar Naxçıvanda bizi söz sahibi edirdi. Heydər Əliyev müəyyən cəbhəçilərin əli ilə bu özünümüdafiə batalyonlarının bəzilərini ələ keçirdi. Faktiki Naxçıvanda silahlı qüvvələr arasında iki, tirəlik yaranmışdı. Bir qüvvə Heydər Əliyevin yaratdığı müdafiə komitəsi idi, bir qüvvə də bu komitəni tanımayan cəbhəçilərdən ibarət könüllü batalyonlar. Heydər Əliyev artıq cəbhəçiləri pozuculuqda günahlandırmağa başlamışdı.

**Müsahibənin davamını AzadliqRadiosu.az saytında oxuya bilərsiniz.**

***Babək Bəkir***

# Gülyanaq Məmmədova: «Mən hələ belə siyasi suallara cavab verməyə hazır deyiləm»


Gülyaz və Gülyanaq Məmmədova bacıları. Foto: Big.az

**Artıq müğənni Gülyaz və Gülyanaq Məmmədova bacıları Yeni Azərbaycan Partiyasının tədbirlərinə üzv kimi qatılacaqlar. Çünki bu günlərdə partiyanın icra katibi Əli Əhmədov YAP-ın Nərimanov rayon təşkilatının üzvlük vəsiqəsini onlara və bir neçə sənət adamına şəxsən təqdim edib. Bacıların hər ikisi ayrı-ayrılıqda AzadlıqRadiosunun suallarını cavablandırarkən dedilər ki, onlar onsuz da indiyə kimi hakim partiyanın bir çox tədbirlərinin mədəni hissəsinin iştirakçısı olublar.**

Gülyaz Məmmədova isə daha kəsə danışdı: «Öz-özümüzə dedik ki, YAP-ın niyə «knijka»sını da almayaq. Amma biz gözləmirdik ki, Əli müəllim bizə şəxsən təqdim edəcək, təmtəraqlı olacaq. Elə bilirdim ki, elə kartımı alıb qayıdacam».

**«İXTİYARIMIZ ÇATAN MƏSƏLƏ OLARSA..**

*- Yəqin ki, partiyanın Nərimanov rayon təşkilatının iclaslarına qatılacaqsız. Yenə müğənni kimi qatılacaqsınız?*

- Müğənni kimi.

*- Gülyaz xanım, onsuz da müğənni kimi qatılırdız, əgər iclaslarda iştirak edib öz fikirlərinizi söyləməyəcəksinizsə, onda bu addımı atmağa nə ehtiyac vardı?*

- Bizə aid olarsa, ixtiyarımız çatan məsələ olarsa, məmnuniyyətlə qoşularıq. Mənə aid olmayan şeyə qarışmağı sevməmişəm.

Gülyanaq Məmmədova isə hələlik özünü siyasi suallara hazır saymır, amma ümid edir ki, hakim partiyaya üzv olandan sonra siyasi məsələləri də öyrənəcək.

*- Mən sizin müxalifətin bir-iki gün öncə Bakının "Nərimanov" kinoteatrının qarşısında keçirmək istədiyi aksiyaya münasibətinizi bilmək istəyərdim. Necə bilirsiz, ölkədə islahatlar tələb edən müxalifət haqlıdırmı?*

- Mən o hay-həşiri elə evimdə oturanda eşitdim. Yasamalda yaşayıram, bir də gördüm bir neçə gənc «Azadlıq» qışqıra-qışqıra gedir. Düzdür, qarşısı da tez alındı. Onların bu hərəkətinə münasibətim yaxşı olmadı, tələbləri bilmədim nədir, elə bircə «Azadlıq» eşitdim. Hər halda biz azad ölkədə yaşayırıq. Azadlığımız da, hər şeyimiz də var. Problemlərimiz də var, onlar da yoluna düşəcək.

*- Necə bilirsiniz, Azərbaycanda sərbəst toplaşmaq azadlığı varmı?*

- Bilmirəm. Əlbəttə ki, hər şeydə azadıq biz.

**AzadliqRadiosu.az saytında müsahibənin davamını oxuyun.**

***Səadət Akifqızı***

# Sumqayıt: Başçı və kitab


Şahbaz Xuduoğlu

**İyunun 22-də Sumqayıtda kitab yarmarkası oldu. Saat 11-də başlasa da, artıq saat 10-dan Sumqayıtın mərkəzinə gedən yollar bağlı idi. Köhnə avtovağzalın yanında, Heydər Əliyev parkında böyük bir sahədə Sumqayıt kitabçıları öz stendlərini bəzəyib başçının gəlişini gözləyirdilər. Saat 11-də başçı gəldi və gəlişiylə mikrofondan millətimizin tarixindən, kitaba məhəbbətindən, Nizamisindən, Füzulisindən sitatlar səslənməyə başladı. Başçı Heydər Əliyevin heykəlinin yanında ayaq saxladı, arxasınca gələn əshabələr də dayandı, səslənən fikirləri dinlədi. Polis mühafizəsi ətrafda dayanan camaatı kənara qovdu. Başçı bir az da irəli gəlib tədbiri aparan aktyorların önündə dayandı.**

...Sonra başçı gurultulu musiqi sədaları altında bir-bir stendlərə yaxınlaşdı, kitablara kənardan baxdı, (bəli məhz kənardan, onun hansısa kitaba toxunduğunu görmədim) bəzi izahatları dinlədi və saat əqrəbi istiqamətində meydanı dolandı. Bu an mən köhnə kitablar arasında Axundovun "Kəmalüddövlə məktubları"nı vərəqləyirdim: "...padşah küçəyə çıxdığı zaman əllərində çubuq və çomaq tutan fərraşlar hökmdarın övladı sayılan camaatı onun yolu üstündən qovub uzaqlaşdırılar, bu işdə zərrə qədər gecikən adamın baş-qulağını əzişdirirlər. Əgər camaatı qovmaqda məqsəd düşmənlərin padşahın canına qəsd etməsinin qarşısını almaqdırsa, bəs nə üçün dəfələrlə bəla gülləsinə hədəf olan Avropa padşahları, yenə də inam və cəsarəti əldən verməyib həmişə təktənha bayırda gəzirlər".

Kitabdan gözümü çəkəndə gördüm ki, başçı yarmarkanın sonuna çatmamış yola çıxdı və maşınına əyləşdi, korteji görünməz oldu. O getdi, yollarda hərəkət bərpa oldu. Başçının arxasınca hərəkət edən mühafizə dəstəsi və məmur ordusu dağıldı. Az sonra nəşriyyatların stend və stollarına bir dəstə qadın yaxınlaşdı. "Tez olun boşaldın stolları!"- əmrini verdilər. Sən demə bu stollar yaxınlıqdakı məktəbdən gətirilibmiş, indi də geri istəyirdilər. Nəşriyyatlar qadınlarla əlbəyaxa olmasın deyə stolları geri qaytardılar və suları süzülə-süzülə Bakıya döndülər.

Su demişkən, Ceyranbatan gölü Zümrüd rəngindəydi...

***Şahbaz Xuduoğlu,***
***"Qanun" nəşriyyatının direktoru***

# Orxan Pamuk, Umberto Eko, Salman Rüşdi BMT-yə müraciət etdilər


Orxan Pamuk

*7 tanınmış yazar - Orxan Pamuk, Umberto Eko, Salman Rüşdi, David Grossman, Amos Oz, Wole Soyinka və Bernard-Henri Levy BMT-nin Təhlükəsizlik Şurasına müraciət ediblər. Onlar Təhlükəsizlik Şurasının üzvü olan dövlətləri Suriya hökumətinin öz vətəndaşlarına qarşı təqiblərini pisləməyə, bununla bağlı qətnamə qəbul etməyə çağırıblar. (Röyters)*

Hazırda Qərb dövlətləri, xüsusən də Fransa BMT-nin Təhlükəsizlik Şurasında Suriyaya qarşı qətnamənin qəbulu istiqamətində iş aparırlar. Amma Təhlükəsizlik Şurasının iki daimi üzvü – Rusiya və Çin belə bir qətnamənin qəbuluna ehtiyac olmadığını deyirlər. Suriyada Bəşər Əsəd hakimiyyətinə qarşı üsyan artıq 3 aydır ki davam edir. Hökumət qüvvələrinin üsyançılara qarşı silah işlətməsi nəticəsində indiyəcən 1400 nəfərdən artıq insan öldürülüb.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Rafiq Tağı: **"Münsiflər məşhurlardan yox, vicdanlı adamlardan seçilməlidir"**



**«Qorxma, mən səninləyəm» filminin davamı çəkiləcək**



Ülkər Ucqar: **Bu gecə mənim**



**Şair Musa Cəlillin satqın sayılması ilə bağlı qalmaqal**



Gənc dramaturq: **"Elə teatr direktorları var ki, səndən pul istəyirlər"**

# Cənubi Tirol: **Referenduma ehtiyac duyulmayan geniş muxtariyyət**



Cənubi Tirol, Meran şəhəri - 2005

**İLHAM ƏLİYEVİN NÜMUNƏ GÖSTƏRDİYİ TİROLUN TARİXÇƏSİ**

Azərbaycan prezidenti İlham Əliyev iyunun 23-də «Euronews» televiziyasına verdiyi müsahibədə Dağlıq Qarabağa geniş muxtariyyət verilə biləcəyini deyib və misal olaraq Tirol modelinin adını çəkib. Nədir bu? 1910-cu ildə Cənubi Tirolda 220 min almandilli, cəmi 7 min də italyandilli yaşayırdı. Buna baxmayaraq, Birinci Dünya müharibəsinin sonunda – 1919-cu ildə Paris yaxınlığında - Sen-Jermendə imzalanan sülh müqaviləsinə görə, Trentino və Cənubi Tirol Avstriyadan alınaraq İtaliyaya verildi. Bu qərar bölgənin italyandilli əhalisi üçün öz müqəddəratını müəyyənləşdirmək hüququ verirdisə, almandillilər isə əksinə, bu hüquqdan məhrum edildiklərini düşünürdülər. Yalnız İkinci Dünya müharibəsinin başa çatması ilə bölgədə durum dəyişdi.

**TİROL MODELİ NECƏ YARANDI?**

Rəsmi Vyana 1946-cı ildə qalib dövlətlərə müraciət edərək Cənubi Tirolun İtaliyadan alınaraq yenidən Avstriyaya verilməsini istəyir. Böyük dövlətlər İtaliyanı məğlub etmələrinə baxmayaraq, Avstriyanın bu istəyini qəbul etmirlər. Ancaq bunun əvəzində Avstriya və İtaliya xarici işlər nazirləri Parisdə anlaşma imzalayırlar. Həmin anlaşmaya görə də, Cənubi Tirol İtaliyanın tərkibində siyasi, iqtisadi, mədəni, dil muxtariyyəti əldə etməli idi. İkinci addım kimi 1948-ci ildə Cənubi Tirol-Trentino bölgəsinin muxtar statusu qəbul olundu.

Bölgədə gərginliyin artmasından çıxış edən Avstriyanın xarici işlər naziri Cənubi Tirol məsələsini BMT Baş Assambleyasının müzakirəsinə çıxarır. Assambleya 1960 və 1961-ci illərdə Cənubi Tirolla bağlı iki qətnamə qəbul edir. Bu qətnamələrə görə, Avstriya və İtaliya danışıqlara başlayaraq Cənubi Tirolla bağlı ziddiyyətləri ortadan qaldırmalı idilər. Bu danışıqların nəticəsində də 1969-cu ildə Cənubi Tirolun statusu ilə bağlı 137 maddəlik sənəd qəbul olunur. Bu sənəd bütün tərəfləri razı saldığından işlək bir mexanizmə çevrilir.

**TİROLUN İNDİSİ**

Bu gün Cənubi Tirolda həm almandillilərin, həm də italyandillilərin hüquqları qorunur. Cənubi Tirolun geniş qanunverici və idarəetmə hüquqları var, xalq və kənd təsərrüfatı, turizm, dağ sənayesi, sosial və təhsil sahələrində qanunlar çıxarılaraq həyata keçirilir. Digər muxtariyyətlərdə olduğu kimi, xarici siyasət və müdafiə məsələləri mərkəzin tabeliyindədir. Əyalətdə yığılan verginin təxminən 90 faizi orada qalır, ayrıca İtaliyanın dövlət büdcəsindən də ayırmalar edilir. Başqa sözlə, Cənubi Tirol gəlirlərini istədiyi şəkildə idarə edir. Status anlaşmasına görə, Cənubi Tirolda qəbul olunan hər hansı qanun İtaliya qanunu ilə ziddiyyət təşkil edərsə, məsələ Konstitusiya Məhkəməsində həll olunur.

**TİROLUN QARABAĞLA OXŞARLIĞI**

Cənubi Tirol Avropa nümunəsi olsa da, bu muxtariyyət statusu ilə Dağlıq Qarabağ arasında da paralellər aparmaq mümkündür. Birinci oxşarlıq Dağlıq Qarabağda olduğu kimi, Cənubi Tirolun da iki icmadan formalaşmasıdır.

**Yazının tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

***«Atlas» Araşdırmalar Mərkəzi***

# İlanvuranların sayı artıb



**Azərbaycanda ilanvuranların sayı ötən illə müqayisədə artıb. Bunu Kliniki Tibbi Mərkəzin toksikologiya şöbəsinin müdiri Azər Maqsudov AzadlıqRadiosuna müsahibəsində bildirib. Aprel ayından indiyə kimi klinikaya ilan vuran 40-a yaxın adam müraciət edib. Onlardan ikisinin həyatını xilas etmək olmayıb. Azər Maqsudov deyir ki, səbəb onların həkimə vaxtında çatdırılmamasıdır:**

«Biz ilan vuran adama qarşı ilkin tədbir kimi, zəhərin sorulmasını və ya yaranın kəsilməsini məsləhət görmürük. İlan vurana ilk tibbi yardım kimi, yaranı təmiz bintlə bağlamaq, üstünə buz qoyub təcili yaxındakı tibb məntəqəsinə çatdırmaq lazımdır. Həmin tibb məntəqələrində ilanvurana ilan əleyhinə zərdab vurulur. Sonra isə klinikaya gətirmək lazımdır».

**BAKI KƏNDLƏRİNDƏ «ORTA ASİYA HÖRÜMÇƏYİ»**

A.Maqsudov deyir ki, Bakı kəndlərində son illər «Qara qurd» adlı zəhərli hörümçəyə rast gəlinir: «Bu hörümçək Orta Asiyada yaşayır. Güman edilir ki, Azərbaycana meyvə-tərəvəzlə gətirilib, indi də bəzi Bakı kəndlərində müşahidə olunur. Məsələn, Maştağa, Mərdəkan, Buzovna, tək-tək Zirədə ona rast gəlinib. Bu il indiyə kimi dörd nəfər müraciət edib».

A.Maqsudov deyir ki, «Qara qurd» hörümçəyinin zəhəri vaxtında həkim müdaxiləsi olmasa, öldürücü ola bilər. Bu hörümçək adamı sancan zaman sancılan yerdə, sonradan isə qarın nahiyəsində kəskin ağrılar olur, adamı soyuq tər basır, qan təzyiqi düşür. A.Maqsudov məsləhət görür ki, hörümçəyin sancdığı adama dərhal ağrıkəsici vurulub həkimə çatdırılsın.

**ÇİYƏLƏKDƏN ZƏHƏRLƏNƏN AZDIR**

A.Maqsudov onu da əlavə edir ki, əvvəlki mövsümdən fərqli olaraq çiyələkdən zəhərlənənlər azdır: «Mövsüm yeni başlayıb. Həftədə iki-üç nəfər müraciət edir».

***Səadət Akifqızı***

# Qazaxıstanda çoxarvadlılıq



*Qazaxıstanda siyasətçilərin çoxarvadlılığından danışanda bir ifadə işlədirlər: "Almatı bir arvadı olanlar üçündür, Astana çox arvadı olanlar üçün". Uzun illər Almatıda qərarlaşan hökumət 1990-cı illərin axırlarında yeni paytaxt Astanaya köçdü. İndi Almatı köhnə dövrün simvoludur, Astana yeni dövrün.*

**QANUN NƏ DEYİR?**

Qanunla Qazaxıstanda poliqamiya, çoxarvadlılıq olmaz. Hətta məhz 90 il bundan qabaq iyunun 21-də Sovet hakimiyyəti çoxarvadlılığı qadağan etdi. Bütün Orta Asiya dövlətlərində çoxarvadlılıq cinayətdir, buna görə iki il həbs cəzası almaq olar. Ancaq Qazaxıstanda vəziyyət fərqlidir. Burda 1998-ci ildə çoxarvadlılıq cinayət məcəlləsindən çıxarıldı və artıq cinayət deyil. Bundan keçən 13 ildə çoxrvadlılıq Qazaxıstanda görünməmiş irəliləyiş edib. Həm şəhərlərdə, həm regionlarda imkanı olanların çoxunun bir neçə arvadı var.

**KİŞİLƏRİN 40 FAİZİ DƏSTƏKLƏYİR**

Qazaxıstanda nə qədər belə ailə var? – bunu dəqiq bilən yoxdur. Çünki bunun statistikası aparılmır. Qazaxıstan mediasının apardığı sorğuya görə, rəyi soruşulan kişilərin 40 faizi poliqamiyanı dəstəkləyir. Qadınlar arasında belə dəstək cəmi 20 faizdir. Poliqamiyanı dəstəkləyənlər deyirlər ki, bu, bütün cəmiyyətlərdə var. İslama istinad edənlər də çoxdur. Çox arvadı olanların çoxu yaşı 40-dan yuxarı imkanlı kişilərdir. Belə kişilərin ikinci, üçüncü arvadı olanlar isə adətən yaşı 20-dən 30-dək olan qadınlardır.

**PREZİDENT DƏ?**

Prezident Nursultan Nazarbayevin keçmiş kürəkəni Rahat Əliyev deyir ki, prezidentin də Astanada bir yox, iki gənc arvadı var. Hazırda Avstriyada olan Rahat Əliyevin sözlərinə görə, prezidentin bu qadınlardan 3 uşağı var. O cümlədən yeganə oğlu məhz bu qadınlardandır. Nazarbayev bu sözlərə heç vaxt cavab verməyib.

**"ONDA ÇOXƏRLİLİYƏ DƏ İCAZƏ VERİLSİN"**

Qazaxıstan parlamenti iki dəfə poliqamiyanı qanuniləşdirmək məsələsinə baxıb. Hətta 2001-ci ildə konstitusiyaya dəyişiklik təklif olunurdu. Ancaq hər dəfə poliqamiyanı qanuniləşdirmək təklifləri rədd olunub. 2008-ci ildə parlamentdəki son belə cəhdin qarşısını alanlardan biri qadın haqları fəalı Baxıt Sızdıkova oldu. O dedi ki, "çoxarvadlılığa icazə vermək istəyirsinizsə, onda çoxərliliyə də icazə verilməlidir. Çünki konstitusiyaya görə, qadınlarla kişilərin hüquqları eynidir".

***Elxan Nəsibli***

**Qaynar Xətt**

Şikayətiniz, sözünüz olduqda AzadlıqRadiosunun **«Qaynar xətt»**inə müraciət edin:

Telefon: (+99412) 436-77-41 E-mail: efir@azadliqradiosu.az
SMS: (+99450) 744-10-17 azadliq@rferl.org

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadlıqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar




# "Simsiz teleqraf"

## NÖVBƏ HAVANINDIR




YÜKLƏYİB: ORXAN
22.06.2011

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:**
<u>efir@azadliqradiosu.az</u>

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**HotBird $13^0$E**

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

24 saat

**$42^0$ E**

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu




## SİZİN VƏKİLİNİZ: səhifəsi

İNTERNETDƏ VƏKİL MƏSLƏHƏTXANASI
SUAL VER VƏ CAVABLARLA TANIŞ OL

Suallarınıza hüquqşünas cavab verəcək...

### Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

### Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az
**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz